İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

15 SENTYABR 2021-Cİ İL №017 (140)

Səh. 2 “GÜNƏŞİN QABAĞINI KƏSMƏYİN!”- İBRAHİMXƏLİL YAZIR

Səh. 3 AYRILIQ ANCAQ MƏSAFƏDƏ QALMALIDIR - LAMİYƏ HACIYEVA YAZIR

Səh. 3 BİR ÜRƏK ÜÇÜN DÖYÜNƏN MİNLƏRLƏ ÜRƏK- HACI BƏKİROĞLU YAZIR

Səh. 5 BOŞ MƏZAR VƏ İTKİN DÜŞMÜŞ ARZULAR - DİLARƏ TƏHMƏZOVA YAZIR

Səh. 5 SUYUN DADI - VÜQAR VƏKİLOĞLU YAZIR

Səh. 6 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 7 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

## BAŞ İNFEKSİONİST: GÜRCÜSTANDA PANDEMİYANIN BEŞİNCİ DALĞASI GÖZLƏNİLİR



“Gürcüstanda koronavirus pandemiyasının beşinci dalğası gözlənilir, lakin əvvəlkilər kimi ağır keçməyəcək”. Bunu Gürcüstanın baş infeksionisti, Tbilisi Yoluxucu Xəstəliklər Xəstəxanasının direktoru Tengiz Tsertsvadze jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, ölkə epidemiyanın ən ağır günlərini geridə qoyub.

“Bütün dünyada olduğu kimi, Gürcüstanda da beşinci dalğa yaşanacaq. Bu mərhələ nisbətən yüngül keçəcək, belə ki, o vaxtadək vaksinin hər iki dozasını vurduranların sayı çox olacaq”, - deyə T.Tsertsvadze bildirib.

Qeyd edək ki, ölkə hazırda pandemiyanın dördüncü dalğasından keçir. Delta ştamının yayılması səbəbindən avqust ayında yoluxma və ölüm hallarında rekord göstəricilər qeydə alınıb.

## PANDEMİYA DÖVRÜNÜN TƏLƏBLƏRİNİ POZAN ŞƏXSLƏRİN CƏRİMƏLƏRİ SİLİNƏCƏK



Gürcüstan parlamentinin sentyabrın 7-si keçirilən plenar iclasında pandemiya dövrünün tələblərini pozan şəxslərin cərimələrinin silinməsini nəzərdə tutan qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Sənəddə 2020-ci ildən 2021-ci ilin iyunun 23-dək törədilmiş qayda pozuntularına görə yazılan cərimələrin ləğvi nəzərdə tutulub.

Qanun layihəsi ilə həm fiziki, həm də hüquqi şəxslər inzibati və cinayət məsuliyyətindən azad olunacaqlar.

Qeyd edək ki, amnistiya 245 min vətəndaş və 344 hüquqi şəxsi əhatə edəcək. Silinəcək cərimələrin ümumi məbləği təxminən 76 milyon lari təşkil edir.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 8 MİNİ ÖTÜB



Sentyabrın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 8 347 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 587 551 nəfər, sağalanların sayı isə 551 780 nəfər olaraq göstərilib. Sentyabrın 15-nə kimi ölkədə 1 561 228 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 76 nəfər, stasionar nəzarətdə 5 785 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 1 318 nəfə olaraq göstərilib.

## TƏDBİRLƏRDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ARAYIŞ TƏLƏB OLUNACAQ



Gürcüstanda müxtəlif tədbirlərdə iştirak etmək istəyən vətəndaşlar vaksinasiya haqqında arayış və ya son 72 saat ərzində aparılmış PCR testin mənfi nəticəsi, ya da son 24 saat ərzində götürülən antigen testin cavabını təqdim etməli olacaqlar.

Bu barədə Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurasının nəzdindəki Operativ Qərargahın rəhbəri Giorgi Qibradze məlumat verib.

Onun sözlərinə görə, şuranın qərarı ilə son 6 ay ərzində koronavirus keçirmiş şəxslərdən də bu sənədlər tələb olunacaq.



# “GÜNƏŞİN QABAĞINI KƏSMƏYİN!”

Bir nəfər kor yaz günəşinin altında dayanıb Günəşi öyürdü:

– Ey İşıq Okeanı! Ey möcüzələr möcüzəsi! İndi gör sənin boyda möcüzəni Yaradanın özü nə dərəcədə böyük olmalıdır!

Bu, kənarda dayanıb dinləyən bir nəfərə çox təsir edir. Heyrətini gizlədə bilməyib soruşur:

– Qardaş, axı bu necə olur? Sən günəşi görməyə-görməyə ona bu qədər tərif deyirsən?

Kor belə cavab verir:

– Gözlərim tutulan gündən günəşi qəlbimə-ruhuma köçürdüm, qardaş! O vaxtdan sanki qəlbimdən doğmağa başlayır günəş. Amma kor olmayanların çoxu günəşə sadəcə olaraq ətrafdakı digər əşyalara baxan kimi baxırlar. Qəlbinin gözü ilə gör, qardaş, qəlbinin gözü ilə!

Əlbəttə, günəşi qəlbə köçürmək də bir Sənətdir. Çünki əslində hərənin qəlbində öz məxsusi günəşinin olmağı çox mənalı, çox həyati, çox da lirikdir! Qalır bu günəşdən kiminsə könüllü imtina eləməyinə, ya da son nəfəsə qədər öz günəşinə sadiq qalmağına – bunlar hamısı bir yerdə könül məsələsidir!

Məsələn, mənə gəlincə, adamlar görmüşəm ki, gecələr günəş üçün ağlayırlar, gündüzlər isə könüldən göylərə baxıb günəşi görməyə ərinirlər. Yox, yox, nə fotodermatoz, nə fotodermatit xəstəlikləri var, nə də əriməkdən qorxurlar e, bəlkə də gizlin saxladıqlarının işıqda görünəcəyindən ehtiyatlanırlar. Kim bilir...

Amma bir dəfə biri Mirzə Qələmə deyibmiş:

– Evin tikilsin (yaxşı ki, yıxılsın deməyib), mənim vaxtımmı var ki, günəşə də baxam? Unutma: vaxt – puldur, vaxt – günə baxmaqla günəbaxan olmaq deyil!

...Doğrudan da, günəş hamı üçün doğurmuş, amma heç də hamını nurlandırmırmış, hamını aydınlatmırmış.

Günəşlə birgə oyanmadıqları, şəfəqlərlə-şüalarla oynamadıqları, sevgi bəsləmədikləri bir yana, günəşi, günəş misilli həqiqətləri, haqq adamları ləkələyənlər də istənilən qədərdir. Əlbəttə, elmdə, məsələn, astronomiyada “Günəş ləkələri”ndən danışılır. Amma bu, ayrı mövzudur, arada-sırada heç biz girən kol olmur. Amma, bizim Qalaktikanın məlum olan 200 milyard ulduzundan biri olan Günəşi öz qəlblərindəki kiçik günəşlərlə bərabər yaşadaraq səmimi qovşaq eləyən “günəşcillər”i ləkələyənləri, Mirzə Qələminki olmasın, ***Diogenin tüpürcəyi***nə tuş olsunlar!

Diogen demiş...

...orada ayla, illə, burada müxtəsər dillə, bizim eradan əvvələ gedəsi oluruq.

Vaxtı ilə Diogenin vətənində hesab edirdilər ki, Günəş – Heliosun, yəni mifoloji təsəvvürlərə görə günəş tanrısının arabasıdır. Adamlar da bunu qəbul edirdilər. Çünki adamlara həmişə iki şey lazım olub: çörək və tamaşalar! İlk Olimpiya oyunlarına araba yarışları da daxil idi. Və təbii ki, hər atlet də öz arabasını Heliosun arabası hesab edirdi. Bu da yarışlardakı udmaq ehtirasını alovlandırırdı... Onda Anaksaqor adlı filosof ilk olaraq axına qarşı getdi. Dedi ki, Günəş – heç də Heliosun arabası deyildir! Aləm (qədim Yunanıstan) dəydi bir-birinə! Amma bütün təfərrüatlara toxunmayaq. Müxtəsəri, bu cür düşüncəni təbliğ etdiyinə görə Anaksaqoru həbsə atdılar. Yazıq uzun müddət ölüm hökmünü gözlədi...

Bəlkə də unudulmaz Diogen illər sonrası elə unudulmaz Anaksaqoru nəzərdə tutaraq belə buyurmuşdu: “Günəş öz şüalarını təzəklə dolu xəndəklərə də toxundurur, amma qətiyyən bulanmır”.

Bu olumlu-ölümlü dünyada xeyli adam da elə təzək olaraq qalırmış.

Üstü – bəzək, içi – təzək olmağın faciəsindən arazbarı azmı yazılıb?

...Amma sən birisinin təzək olmağına deyil, bəzəyə kor-koranə tonnaj-tonnaj bağlanaraq kiçik günəşlərə kin və ədavət bəsləməyinə, təəssübkeşliyinə bax! İfrat dərəcədə fanatizmini, “qeyrət” çəkməkdə ifrata varmağını, “fədakar”casına tərəf saxlamağını demirəm. Şərin – adı pasportda necə gedirsə eləcə də yazıram – nəinki özünün, hətta kölgəsinin təəssübünü çəkməyini deyirəm! Siz ana dilimizdə “kölgə”ni heç böyük hərflə yazan gördünüzmü? Sonra deməyin ki demədi. İşdi-şayəd, onun həndəvərlərində, hüdudlarında “kölgə” sözünü birdən kiçik hərflə yazarsınız ha! Bəs deyirdiniz kölgənin təəssübü, təəssübkeşi olmur! Nooooldu?.. Yoxsa unudulmaz Konfutsi boş yerəmi demişdi: “Əgər bir yerdə kiçik insanların kölgələri böyüyürsə, deməк o yerdə Günəş batır”.

Əlbəttə ki, yer üzündə həyatın mövcudluğu səbəblərindən birinin, yəni Günəşin biryolluq batıb-batmamağı bütün ulduzlardan yuxarıda olan Yaradanın əmrindədir!

Amma unutmayaq: buralarda batabatda olan kiçik günəşlər də var!..

P.S.

...Böyük İskəndər özünü günə verən Diogeni görüb dayanmış və təəssübkeşliklə: “Sənə nə kömək edə bilərəm?” – deyə soruşmuşdu.

Böyük ustad belə cavab vermişdi: “Köməyiniz lazım deyil, lütfən, günəşin qabağını kəsməyin”!

...“Günəşin qabağını kəsənlər”dən başqa hamıya səslənirəm: Diogenin heyranıyam. Bu, bir!

İkincisi, “Google”yə İbrahimxəlil yazırsan – mənim adım gəlmir, unudulmaz İbrahimxəlil xanın adı gəlir. “Günəşin qabağını kəsənlər”in (onlar hər əsrdə var!) ucbatından Xan bağında qanı axıdılan İbrahimxəlil xanın! Amma Diogen yazırsan, onda mənim adım da gəlir. Yoxlaya bilərsiniz, sadəcə olaraq Diogen haqqında olan şeirimin bircə bəndinə, bəlkə də bircə misrasına istinad eləmək lazımdır:

*Kim yoğurub-yapdı bunca gil adamları?..*
*...uzaq yerdə gil adamlar gülə şərdilər!*
*Mən çəlləkdə yaşamadım Diogen kimi;*
*Diogeni lağa qoyub gülüşərdilər...*

***İBRAHİMXƏLİL***

# MİXEİL SAAKAŞVİLİ: OKTYABRIN 2-Sİ GÜRCÜSTANA GEDƏCƏYƏM



“Şəxsən mən oktyabrın 2-də keçiriləcək seçkilər üçün Gürcüstana gedəcəyəm”. Bunu Gürcüstanın üçüncü prezidenti (2004-2013) Mixeil Saakaşvili feysbuk səhifəsi üzərindən videomüraciətində deyib.

O, Gürcüstanda həbs olunacağından qorxmadığını bildirib: “Əminəm ki, gürcü xalqı özünü azad edəcək və mən də azadlığa çıxacağam. Taleyimi gürcü xalqının əlinə verməkdən qorxmuram”.

Keçmiş dövlət başçısı həmvətənlərinə çağırış edib: “Gürcüstanı xilas etmək bizim vətənpərvərlik borcumuzdur. Gürcüstanda hər şey məhv olur, insanlar ölkəni hər gün kütləvi şəkildə tərk edir. Hər kəs seçkiyə getməli və Bidzina İvanişvilinin arzusunun əleyhinə səs verməlidir”.

M.Saakaşvili tərəfdarlarını planları barədə mərhələli şəkildə məlumatlandıracağını vurğulayıb.

Qeyd edək ki, M.Saakaşvili 2015-ci ildən Gürcüstan vətəndaşlığından məhrum edilib. Ukrayna vətəndaşı olan siyasətçi 2020-ci ilin mayından bu ölkənin İslahatlar üzrə Milli Şurasının İcraiyyə Komitəsinin rəhbəri vəzifəsində çalışır. Gürcüstana dönəcəyi halda onu bir sıra ittihamlar üzrə həbs gözləyir.

# GİORGİ QAXARİA TBİLİSİ MERİ VƏZİFƏSİNƏ NAMİZƏD OLUB



Gürcüstanın sabiq baş naziri Giorgi Qaxarianın Tbilisi meri vəzifəsinə namizədliyi irəli sürülüb. Bu barədə o, özü sədri olduğu “Gürcüstan naminə” partiyasının yerli seçkilər üçün namizədlərin təqdimetmə mərasimində bildirib.

Qeyd edək ki, G.Qaxaria 2019-cu ilin sentyabrından bu ilin fevralın 18-dək Gürcüstanın hökumət başçısı olub. Vəzifəsindən istefa verən 46 yaşlı siyasətçi hakim Gürcü Arzusu Partiyasını da tərk edib. O, “Gürcüstan naminə” adlı partiyanı bu ilin mayında yaradıb.

Xatırladaq ki, ölkədə yerli özünüidarəetmə orqanlarına seçkilər bu ilin oktyabrın 2-də keçiriləcək.

# TAM PEYVƏND OLUNANLARA ÖDƏNİŞSİZ XİDMƏTLƏR GÖSTƏRİLƏCƏK



Gürcüstanın Ədliyyə Nazirliyinin yaydığı məlumata əsasən, koronavirus əleyhinə tam vaksin olunan şəxslərə güzəştlər tətbiq ediləcək.

Məlumata görə, peyvəndin hər iki dozasını vurduranlar nazirliyin xidmətlərinin bir qismini ödənişsiz, bir qismini isə yarı qiymətə əldə edəcəklər.

Ödənişsiz xidmətlərə fərdi sahibkarın qeydiyyatı, qeydiyyata dair məlumatların dəyişdirilməsi, ləğvi və daşınmaz əmlak bəyannaməsinin yenilənməsi daxildir. 50 %-lik endirimdən isə evliliyi əngəlləyən hallar barədə bildirişin alınması və şəxsiyyət vəsiqəsinin sertifikatının yenilənməsi xidmətlərindən istifadə zamanı yararlanmaq mümkün olacaq.

Ədliyyə evlərində və icma mərkəzlərində göstəriləcək güzəştli xidmətlərdən istifadə üçün öncədən növbəyə yazılma tələb edilmir.

# AYRILIQ ANCAQ MƏSAFƏDƏ QALMALIDIR



Ailə fərdlərinin bir-birinə münasibəti hər zaman eyni aktivlikdə və eyni vəziyyətdə qalmayaraq daha da inkişaf etməlidir. İnkişaf etməsə də, heç olmasa, eyniliyini qorumağı bacarmalıdır.

Ailəni təsvir etmək üçün kəlmələr incəliklə, diqqətlə seçilməlidir. Ailə fərdləri bir-birlərinə ən yaxın olan kimsələrdilər. Onların duyğuları arasına zaman və məsafə girməməlidir. Düzdür, zamanımızda yaşayan ailə fərdləri uzun illər bir yerdə yaşasalar da bəzi səbəblərdən ötrü ayrı düşmək məcburiyyətində qalırlar. Bu ayrılıq bəzən müvəqqəti olur, bəzən bir ömür çəkir. Məsələn, ailə qurub evdən ayrılan bir fərd gözəl həyat ümidi ilə ayrılır və yeni başqa bir ailənin təməlini qoyur. Amma bəzən ciddi, bəzən də ciddi olmayan səbəblərdən ötrü ayrılıqlar yaşanır. Bu ayrılıqlara çox misallar gətirmək olar, ancaq bizim mövzunun canı ayrılıqların səbəbi nə olursa olsun, hətta geridə qalanlarla küskünlük üzündən ayrılıq yaşanırsa, bu küskünlüyün uzun zaman sürməməsi üçün qarşısının alınması lazımdır. Yoxsa sonda kədərlənən yenə biz olacağıq.

Ailə fərdləri arasındakı ayrılıqlar səbəbindən asılı olmayaraq duyğulara yansıdılmamalıdır, ayrılıq məsafə baxımından olmalı, ancaq duyğu baxımından daha da əksi yaşanmalıdır. Yəni duyğular fərdlərə qarşı daha da yoğunlaşmalıdır. Ailə fərdləri arasına heç bir qüvvə girməməlidir və buna fürsət verilməməlidir. Ailə fərdləri arasındakı duyğu əskikliyinə səbəb nə olursa olsun buna yol verilməməlidir.

Ömür yarpaqları bir-bir enərkən biz insanlar onun əlimizdən axıb getdiyini hiss etmirik. Özümüzü günlük yaşantının axıntısına qapdırırıq. Bir də baxırıq ki, ömür qatarı sona doğru yaxınlaşmaqdadır və bizlər bu yolçuluğa çıxdığımız can yoldaşlarımızı, yəni ailə fərdlərimizlə yollarımızı ayırmışıq və onlar biz olan qatarda yoxdurlar və çox əvvəlki dayanacaqda enərək yollarını dəyişdiriblər. Yollar şərtlər qarşısında dəyişə bilər, ancaq duyğular heç bir şərtdə dəyişməməlidir. Zamanla ailə fərdlərinin arasına məsafələr girə bilər, ancaq duyğular dəyişən şərtlər qarşısında aciz qalmamalıdır. Duyğular biz insanları yaşadan can damarımızdır, bu can damarının qidası ailənin birliyindən bəhrələnir.

Ailə müqəddəsdir. Ailə fərdlərinin bir-birinə elə görünməz güclü bağı vardır ki, o bağı qırmağa kimsənin gücü yetməz. Ancaq bəzən elə adi bir şey üzündən o bağlar qoparılıb ayaqlar altına atılır ki, gözlərə sadəcə təəccüblə baxmaq qalır.

İnsanın güc qaynağı onun ailəsidir. Qaynağını itirən birisi həyatda sağa-sola sovrulmaqdadır və tutacaq yer axtarmaqdadır.

Ətrafda insanları yanlış yollara sürükləyən qüvvələr də belə bir fürsət güdməkdədirlər və ailə bağı olmayan, ailədən güc ala bilməyən, iradəsi zəif insanları da öz təsirləri altına salmaqda və istədikləri tərəfə yönləndirməkdədirlər.

**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*

# TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB





"Regionda baş vermiş hadisələri və yeni reallığı nəzərə almaqla qonşu ölkələrlə effektiv əməkdaşlıq ölkənin təhlükəsizliyinin, stabilliyinin və davamlı inkişafının yeganə yoludur". Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Türkiyə Cümhuriyyətinin Gürcüstanda səfərdə olan ədliyyə naziri Abdulhamid Gül ilə hökumət administrasiyasında görüşü zamanı bildirib.

İ.Qaribaşvili A.Gülə Türkiyə tərəfinin Gürcüstanın suverenliyinə, ərazi bütövlüyünə və Avroatlantik strukturlara inteqrasiyasına dəstəyi üçün minnətdarlığını bildirib.

Hökumət başçısı Türkiyə Cümhuriyyətinin ədliyyə nazirinə Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlığın daha da gücləndirilməsinə hazır olduqlarını bildirib. O, qeyd edib ki, hər iki ölkə arasında siyasi və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi prioritetlidir.

Görüş zamanı Gürcüstan hökumətinin ədalət, qanunun aliliyi və insan haqları sahəsində Türkiyə ilə əməkdaşlığın gücləndirilməsi üçün hazır olduğu öz əksini tapıb. Baş nazirin qiymətləndirməsinə görə, bu istiqamətdə iki ölkənin müvafiq qurumları arasında qarşılıqlı əməkdaşlıq memorandumunun imzalanması alqışlanmalıdır.

Hökumət administrasiyasında keçirilən görüş zamanı ədliyyə naziri Rati Breqadze, Türkiyənin ədliyyə nazirinin müavini Yakup Moğul, Türkiyə parlamentinin Gürcüstan-Türkiyə Dostluq Qrupunun sədri Halil Etyemez və Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan iştirak edib.

Daha sonra Gürcüstanın ədliyyə naziri R.Breqadze Gürcüstanda ilk dəfə rəsmi səfərdə olan türk həmkarını nazirlikdə qəbul edib.

A.Gül nazirliyin 10 illik inkişaf planı ilə də maraqlanıb və qurumun strateji istiqamətləri ilə tanış olub.

Görüş başa çatdıqdan sonra tərəflər qarşılıqlı əməkdaşlıq memorandumu imzalayıblar. Sənəd 2021-2024-cü illər üçün nazirliklər arasında birgə tərəfdaşlıq proqramını nəzərdə tutur.

A.Gül Tbilisi Ədliyyə Evinə baş çəkərək Ədliyyə Evinin fəaliyyəti ilə tanış olub və xidmətlər barədə ətraflı məlumat alıb.

# BİR ÜRƏK ÜÇÜN DÖYÜNƏN MİNLƏRLƏ ÜRƏK



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Dünyada yaşayan milyardlarla insanın hərəsinin özünə görə bir dərdi, bir problemi, bir xəstəliyi var. Ancaq bu milyardların içindən bir nəfərin bir xəstəliyi yarandı ki, sanki bu minlərlə insanın eyni anda çəkdiyi xəstəliyə çevrildi. Bəli, söhbət Knyazdan gedir, Knyaz Əliyevdən, o Knyazdan ki, bizlərə kimliyimizi xatırlatdı, bizlərə sinəmizdə daş deyil, ürək gəzdirdiyimizi yad etdirdi.

Düzü, o zamanlar mən bu gənci heç tanımırdım da. 3 il əvvəl hələ o xəstəliyə tutulanda onun haqqında dayım oğlunun sosial şəbəkədə şəklini paylaşıb, altından da Allah şəfa versin yazısını gördüm. Tez zəng edib məsələni öyrəndim. O zaman bildim ki, bu gəncə ürək köçürülməli və bunun üçün də külli miqdarda məbləğ tələb olunmaqdadır. Tez iş otağıma gəlib, həmin şəkli endirib, üzərinə camaatın yardım etməsini təşviq edən bir mətnlə Knyazın adına açılmış bank hesab nömrəsini əlavə edərək tanıdığım, bildiyim hər kəsə göndərdim. Bu paylaşım qısa müddətdə böyük bir kütləyə yayıldı və hər tərəfdə səs-sədaya səbəb oldu. Təbii ki, bu onun üçün başladılan aksiyaların kiçik bir hissəsini təşkil edirdi .

Uzun illərdir özümün övlad həsrəti ilə yandığımdan və bir ananın da övlad həsrəti çəkməsini istəmədiyimdən idi yəqin ki, bu çabam. Çox qısa zaman sonra Allahın məni və ailəmi övlad sevinci ilə sevindirməsi də bu yaxşılığımın qarşılığı və ya bir ananın duasının nəticəsi idi bəlkə də.

Knyaz bizə birliyimizi, gücümüzü, bağlılığımızı öyrətdi. O zamanlar marneulili birinin Laqodexidə, qaballı birinin Bolnisidə Knyaz üçün yardım topladığının şahidi olduq. Dünyanın müxtəlif yerlərindən gələn zənglər, yardımlar bizim birliyimizi daha da möhkəmləndirdi. Bu yardımın toplanması üçün yeddidən yetmişə, əkinçisindən deputatına kimi hər kəs birlik oldu. Tövləsindəki danasını satan yetmiş yaşındakı dayı da, dondurma alması üçün 1 lari verilən körpə uşaq da əlindəki pulunu Knyazın sağalması üçün bağışladı.

Zaman keçdi gərəkən məbləğ toplandı və əməliyyat uğurla həyata keçirildi. Bu əməliyyatdakı ürək sanki Knyaza deyil minlərlə insana köçürüldü. Hər kəs rahat nəfəs aldı.

Aradan 3 il ötdü, bu dəfə yayılan ağır və sarsıdıcı xəbər hər kəsi yasa boğdu. Çünki Knyazın vəfat xəbəri idi bu.

Knyaz bizim birliyimizin bir simvoluna çevrildi. Onun xatirəsi Qarayazı, Borçalı və Başkeçid xalqı üçün həmişə əziz olacaq. Çünki Knyaz bizə bir yol açdı. Onun arxasından neçə insanın sağlamlığı üçün dəstək yığıldı.

Əziz qardaşım, yerinin cənnət , ruhunun şad olmasını diləyirəm. Allah sənə rəhmət eləsin!

## BİRİNCİ SİNİF ŞAGİRDLƏRİ 15 SENTYABRDA DEYİL, 4 OKTYABRDA MƏKTƏBDƏ TƏHSİLƏ BAŞLAYACAQLAR



Ölkədəki epidemioloji vəziyyətin yaxşılaşdırılması tendensiyasından irəli gələrək, yüksək ehtimalla, ölkə miqyasında 4 oktyabr tarixindən məktəblərin böyük hissəsində təhsil sinif otaqlarında davam etdiriləcək.

Təhsil və Elm Nazirliyinin qərarına əsasən, birinci sinif şagirdləri təhsilə 15 sentyabr tarixində onlayn rejimdə deyil, 4 oktyabr tarixində sinif otaqlarında başlayacaqlar. Bu qərar yalnız təhsil başlayan məqamda yoluxma göstəricisi 4 %-dən aşağı olan şəhər və kəndlərə aiddir.

Qeyd olunan qərar pedaqoji fikirlərə əsaslanır ki, bu da, birinci sinif şagirdlərinin ilk məktəb təcrübəsini sinif otaqlarında, sinif yoldaşları və müəllimlərinin əhatəsində olmasını nəzərdə tutur.

Xatırladaq ki, Koordinasiya Şurasının qərarına görə, Gürcüstan miqyasında ictimai və özəl məktəblər, peşə məktəbləri, ali təhsil müəssisələri 15 sentyabr tarixində təhsilə onlayn rejimdə başlayır və bu formatda təhsil 4 oktyabra qədər davam edəcək.

Koordinasiya Şurası sonrakı qərarı 4 oktyabra olan göstəricilərə əsasən müzakirə edəcək. Həmçinin 4 oktyabrdan sonra yoluxma göstəricisi 4 %-dən aşağı olan kənd və şəhərlərdə distant rejim ləğv olunacaq və təhsil əyani şəkildə davam etdiriləcək. Təhsil və Elm Nazirliyi ötən rübdə olduğu kimi, bu halda da məktəb ictimaiyyətinə maksimum dərəcədə sürətli sistem təklif edəcək. Məktəblərin əyani və distant təhsil arasında seçim etmək imkanı olacaq. Bu qərar birinci siniflərə də aiddir.

## SON 10 İLDƏ ŞAGİRDLƏRİN SAYI 22 944 NƏFƏR AZALIB



Son illərdə orta təhsil alan şagirdlərin sayı mühüm dərəcədə azalıb. 2010-cu ildə 12-ci sinfi 61 196 şagird bitirmişdirsə (onlardan 29 941-i qız, 31 255-i oğlan), 2020-ci ildə bu rəqəm 22 944 nəfər azalaraq 38 252 (onlardan 18 659-u qız, 19 593-ü oğlan) təşkil edib.

Orta məktəb şagirdlərinin sayının belə ciddi şəkildə azalmasına nəyin səbəb olmasını demək çətindir. Ancaq qeyd etmək lazımdır ki, baza pilləsini bitirdikdən sonra şagirdlərin kiçik qismi peşə proqramlarında təhsilini davam etdirir. Bu, onlara peşə ilə yanaşı orta təhsili təsdiq edən sənədi almaq imkanı da yaradır.

Təhsil və Elm Nazirliyinin statistik göstəricilərində qeyd olunduğuna görə, 2010-cu ildə baza pilləsini 56 404 şagird bitirib, onlardan 27 127-si qız, 29 277-si isə oğlandır. Son göstəricilərə əsasən, baza pilləsində şagirdlərin sayı da azalıb. Belə ki, 2020-ci ildə 9-cu sinfi 50 302 şagird bitirib, onlardan 23 869-u qız, 26 433-ü isə oğlandır.

Ümumtəhsil barədə qanuna əsasən, baza pilləsində təhsilini tamamlamamış şagirdin məktəbdən çıxarılması yolverilməzdir.

## 2021-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ FİNALÇILARI ELAN EDİLİB




Milli Müəllim Mükafatının 5 finalçısı elan edilib. Onlardan biri 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü Milli Müəllim Mükafatının sahibi olacaq. Bundan əlavə, həmin şəxsə Qudavadze-Patarkatsişvili Fondu tərəfindən 10 000 lari dəyərində pul mükafatı veriləcək.

2021-ci ilin Milli Müəllim Mükafatının finalçılarını müsabiqə təşkilatçıları və dəstəkçiləri elan edib. Finala çıxan müəllimlər arasında Marneulinin kəndlərində dərs deyən müəllim də var.

***Finala çıxan müəllimlər bunlardır:***

- **Sopio Baçilava** – Tbilisi "Opiza" özəl məktəbinin vətəndaşlıq, vətəndaş təhsili, mən və cəmiyyət fənləri üzrə müəllimi;
- **Lamara Bolkvadze – Marneuli bələdiyyəsinin Maradisi və Qasımlı ictimai məktəblərinin gürcü dili və ədəbiyyatı müəllimi;**
- **Qita Tvalabeişvili** – Tbilisi 168 saylı ictimai məktəbin ibtidai sinif müəllimi;
- **Xatuna Razmadze** – Tbilisi Müqəddəs Giorgi adına beynəlxalq məktəbin riyaziyyat müəllimi;
- **Aza Xanqoşvili** – Axmeta bələdiyyəsinin Duisi ictimai məktəbinin fizika, təbiətşünaslıq, sahibkarlığın əsasları və idman müəllimi;

Milli Müəllim Mükafatı Təhsil Koalisiyası, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz və Təhsil və Elm Nazirliyi arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 may tarixində təsis edilib. Gürcüstan qeyd olunan təşəbbüsü artıq beşinci dəfədir həyata keçirir və bu təşəbbüs müəllimlərin təşviqinə istiqamətlənmiş qlobal kampaniyanın – "The Global Teacher Prize"ın bir hissəsidir.

Qudavadze-Patarkatsişvili Fondu 2017-ci ildən layihəni dəstəkləyir və Milli Müəllim Mükafatının baş sponsorudur.

Layihənin tərəfdaşları Gürcüstanın Təhsil və Elm Nazirliyi, İlia Dövlət Universiteti, Konsultasiya və Təlimlər Mərkəzi (CTC), "Liberty" Bank, "İmedi" teleşirkəti, İctimai Televiziya və "4MEDIA" marketinq şirkətidir.

## BÜTÜN FƏNLƏRDƏ KEÇİDİ AŞMASINA BAXMAYARAQ 400-DƏN ÇOX ABİTURİYENT TƏLƏBƏ ADINI QAZANA BİLMƏYİB



2021-ci ilin abituriyentləri arasında bütün məcburi fənlərdə minimal həddi aşan, ancaq tələbə ola bilməyənlər də var. Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin verdiyi məlumata əsasən, həmin abituriyentlərin sayı 413 nəfərdir.

"Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin səlahiyyətləri çərçivəsində bildiririk ki, 2021-ci ilin Vahid Milli İmtahanlarında vacib fənlərdə minimal kompetensiya həddini aşan 413 abituriyent təhsil almaq hüququ qazana bilməyib", - məlumatda bildirilir.

Həmin abituriyentlərin tələbə statusu qazana bilməmələrinin səbəbi isə müxtəlifdir: prioritetlərdə daxili keçid həddi "Naec"in tətbiq etdiyindən daha artıq olan universitetlərin qeyd olunması; proqramların sayının az olması və yüksək müsabiqə olan proqramların seçilməsi və s.

Bu kimi hallar, demək olar, hər il baş verir. Ötən il təxminən 500 nəfər abituriyent bütün fənlərdə keçidi aşmışdı, ancaq ali təhsil müəssisələrində təhsili davam etdirmək hüququ qazana bilməmişdi. 2019-cu ildə isə həmin abituriyentlərin sayı 800-ə qədər idi.

Xatırladaq ki, bu il 29 361 abituriyent, yəni aplikantların 76 %-i tələbə adını qazana bilib.

## PEYVƏND OLUNMAYAN TİBB TƏLƏBƏLƏRİ ÖZ HESABLARINA PCR TESTİ VERƏCƏKLƏR



Tibb fakültəsinin təcrübə hissəsini keçən və əyani şəkildə təhsil alan tələbələr peyvənd olunmalı, yaxud həftədə bir dəfə öz xərcləri ilə PCR testi verməlidirlər. Bu barədə Dövlət Qurumlararası Koordinasiya Şurasının nəzdindəki Operativ Qərargahın rəhbəri Giorgi Qibradze brifinqdə bildirib.

"Əyani şəkildə tibb təhsili alan tələbələr peyvənd vurdurduqlarına dair arayış təqdim etməli və ya öz xərcləri ilə həftədə bir dəfə verdikləri PCR testin mənfi nəticəsini ya da ki, 6 ay ərzində koronavirusa yoluxduğunu təsdiq edən arayış təqdim etməlidirlər", - G.Qibradze deyib.

---

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

Gürcü dilindən tərcümə etdi:
**Aynurə ƏLİYEVA**

# BOŞ MƏZAR VƏ İTKİN DÜŞMÜŞ ARZULAR



Kənd qəbiristanlığına ziyarətə gedənlər hökmən bir qəbrin yanında ani də olsa ayaq saxlayır, hüznlə başını yelləyib keçirlər. Çox böyük təəssüf hissi keçirdikləri baxışlarından duyulur. Həmin qəbrin baş tərəfində başdaşı var, lakin qəbrin içi hələ boşdur. Başdaşında hüzn dolu gözlərlə baxan gənc bir qızın şəkli həkk olunmuşdur. Sanki bu qız insanlara doğru boylanıb şəklinin vaxtsız daşa çəkilməsinin, arzularının nakam qalmasının səbəbini sual edir. Lakin bu lal sualın cavabı qarşısında hamı aciz qalıb. Bəs bunun səbəbi nədir?

Zülfiyyə hələ orta məktəbin axırıncı siniflərində oxuyarkən tibb universitetinə qəbul olmaq arzusu ilə yaşayırdı. Onların ailəsi kasıb olsa da, Zülfiyyə necə olursa olsun həkim olmaq, iş başında ağ xalat geyməyi arzu edirdi. Zülfiyyə orta məktəbi bitirdi, yüksək hazırlıqlı olduğu üçün elə həmin il yüksək balla tibb universitetinə qəbul oldu. O, 3-cü kursda oxuyarkən qonşuları Məhəmməd kişinin oğlu Həsən ona sevgisini bəyan etdi. Lakin Zülfiyyə təhsilini bitirməmiş ailə qurmaq fikrində olmadığını Həsənə bildirdi. Bu cavabdan hiddətlənən Həsən necə olursa olsun Zülfiyyədən bu cavab üçün heyif çıxacağına özlüyündə söz verdi. Valideynlərinin bundan xəbəri yox idi. Onlar həmişə Zülfiyyə ilə əlaqə saxlayır, hal-əhval tuturdular. Bu payız dərs ili başlayanda başqa tələbələr kimi Zülfiyyə də təhsilini davam etdirməyə getdi. Valideynləri onunla əlaqə saxlamaq istədilər, lakin müvəffəq olmadılar.

Buna görə Zülfiyyənin atası qızının ev sahibinə zəng etdi. Lakin qızın hələ də gəlmədiyinin cavabını aldı. Kənddə bəzilərinin gizlin-gizlin danışması, pıçıpıçıları ailəni şübhələndirir, nigaran qoyurdu. Hər kəs qızın Həsənə qoşulub qaçdığını danışırdı. Lakin realda necə idi – qoşulub qaçmışdı, yoxsa zorla qaçırılmışdı?

Aradan çox keçmədi ki, Zülfiyyənin intihar xəbəri yayıldı, ancaq bu xəbər əsassız idi, çünki buna aid heç bir dəlil yox idi. Valideynləri lazımı yerlərə müraciət etsələr də, onların sorğuları cavabsız qalmışdı. Zülfiyyənin nə öldüsündən, nə qaldısından bir xəbər çıxmadı. Bu qızın başına nə gəldiyi, Həsənin ona nə etdiyi naməlum qalmışdı.

Arzuları yarımçıq qalan bu tələbə qızın atası Mürsəl, anası Aliyənin gözləri hələ də övladını axtarır. Zülfiyyənin boş qəbrinə qoyulmuş baş daşındakı şəkil isə oradan ötənlərə: “Günahım nədir?” – sualı dolu nəzərləri ilə baxır.

Zülfiyyənin şəkli sanki qadın zorakılığına son qoymağın çoxdan vaxtı çatdığını hamının yadına salır, qatilin tapılmasını israr edirdi. Zülfiyyə kimi bir çox qadınlar da oxşar faciələrin qurbanı olurlar. Onların günahı nədir? Bu dünyada qadın kimi doğulub yaşamaqmı? Unutmayaq ki, qadın cəmiyyətin bir hissəsidir, ona qarşı belə dözülməz münasibət bütövlükdə insanlığı məhvə aparır, insanlığı öldürür. İnsalığın məhvi isə bütün bəşəriyyətin sonu deməkdir. Ona görə də hər cür vəchlə belə hadisələrin qarşısı alınmalıdır.

**Dilarə TƏHMƏZOVA**
*İlia Dövlət Universitetinin tələbəsi*

# SUYUN DADI



Qəzetlərdə, sosial şəbəkələrdə və internet portallarında bir çox insanımızın tənqidi yazıları ilə və yaxud bu insanların gündəm barədəki aktual yazıları ilə qarşılaşıram. Bu zaman mənim də fikrimdən gündəmlə əlaqədar yazılar və yaxud da tənqidi yazılar yazmaq keçir. Ancaq mən daha çox yaşayış, məişət, insanlar və bu kimi bir sıra mövzularda yazmağı bacarıram. Nə bilmək olar, bəlkə gələcəkdə gündəmin nəbzini ən yaxşı tutanlardan biri də mən olacağam. Mənim seçdiyim mövzu bu deyil. Burada öz yazı tərzim barədə oxuculara məlumat vermək istədim. İndi isə qayıdıram yazmaq istədiyim mövzuya.

Əvvəlcə hedonizm adlanan bir fəlsəfi görüşdən bəhs etmək istəyirəm. Nədir hedonizm? Hedonizm kəlməsi yunan dilindəki “hedone” - “zövq” kəlməsindən düzəldilib, mənası isə “zövqçülük” deməkdir. Hedonizm fəlsəfəsi qədim Yunanıstanda meydana çıxmışdır, bu fəlsəfənin banisi filosof Sokratın da şagirdi olan filosof Aristippos-dur. Aristippos öz fəlsəfəsini açıqlayarkən hər davranışın səbəbinin xoşbəxt olmaq istəyi, nədənsə zövq almaq istəyi olduğunu deyir. Həmçinin Aristippos da daxil olmaqla hedonizm fəlsəfi görüşünü dəstəkləyənlər həzzin əslində mütləq mənada yaxşı olduğunu, insana davamlı həzz verən şeylərə yönəlməyin ən yerində davranış olduğu görüşünü müdafiə edirlər. Bir sözlə, bu fəlsəfi görüşə görə, həyatın mənası davamlı həzz duymaq, həzz duymaq üçün nəsə etməkdir. Bu barədə daha ətraflı danışmaq istəyirəm.

Hedonizm fəlsəfəsində həzz təbiəti etibarı ilə yaxşı; ağrı, kədər isə təbiəti etibarı ilə pisdir. Bu fəlsəfi yanaşma bir baxıma zövqün ağrı və kədərə üstünlüyünü xoşbəxtlik adlandırır. Bunlar bir yana dursun, hedonizmin bir neçə növləri də vardır. Yəni hedonistlər də bir neçə növə ayrılır. Kəmiyyətə önəm verən hedonistlər, zövqün rifah üçün nə qədər mühüm olduğunu, zövqün sadəcə olaraq miqdarının çox və az olmasına bağlı olaraq dəyərli olduğunu deyirlər. Onlar zövqün müddətinin uzunluğu, qısalığı, qüvvətliliyi və zəifliyi ilə maraqlanırlar. Bu hedonizm növünü müdafiə edənlər, ümumiyyətlə, heyvani, bəsit və əxlaqsız zövqlərə həddindən artıq dəyər verməklə ittiham edilirlər. Keyfiyyətə önəm verən hedonistlər zövqün keyfiyyəti ilə maraqlanırlar və zövq keyfiyyətinin zövq üzərində böyük təsiri olacağını düşünürlər. Normativ hedonistlər insanların tək və ana motivasiyasının zövqlər olmalı olduğunu söyləyirlər. Digər tərəfdən hedonizmin bu növünün tərəfdarları insanların etdiyi bütün hərəkətlərin səbəbinin ağrı, kədər və zövq olduğunu deyirlər. Altruistik hedonizm isə bir fəaliyyətin və ya qərarın əxlaqlı olub-olmadığına qərar verməyin tək yolunun bütün insanlar üçün zövq yaradıb-yaratmadığına baxmaq olduğunu deyirlər. Bu fəlsəfi görüşə görə, həyatın mənasının davamlı olaraq həzz duymaq olduğunu qeyd etmişdim, əslində isə belə olmadığını deyirlər bir çoxları. Yəni həyatın mənası davamlı olaraq həzz duymaqdan ibarət deyil. İnsan əgər yaşayırsa, onun bu yaşayışına qəm də daxildir, xoşbəxtlik də, zövq də, ağrı da.

Hedonizmin bütün növlərinin tənqidə layiq olmasına baxmayaraq (hətta fikir adamları tərəfindən müəyyən qədər tənqid olunub da) insanlar hedonistdir. Ancaq burası var ki, bəzən zövq alınan bir şey daha sonra adiləşə də bilir. Yəni insan bu gün zövq almaq üçün nəsə edirsə və bundan böyük zövq alırsa, ancaq həmin şeyi sabah edəndə həmin dərəcədə deyil, nisbətən az zövq duyur. Əlbəttə ki, bu cür zövqlərə daha çox mənəvi zövqlər daxildir.

Əslində isə bütün dadlar suyun dadı kimidir. Yadıma gəlir, çox kiçik yaşlarımda, evimizdən bir qədər uzaqda tarlamız var idi. Anam məni də yanına alardı, tarlaya işləməyə gedərdik. Bəzən özümüzlə su aparmazdıq. İşimiz çox olduğu üçün uzun müddət evə gedə bilməzdik, möhkəm susuzlayardıq. Mən isə çox kiçik olduğum üçün təkcə evə gedə bilməzdim. Axşam olub evə gedəndə, su içəndə, içdiyimiz suyun dadını dünyadakı sərinlədici içkilərin heç biri verməzdi, hansı ki, o sərinlədici içkiləri adi vaxtlarda içərdik və o qədər həzz almazdıq. Daha sonralar da tarlaya işləməyə gedəndə və özümüzlə su aparmayanda sevinərdim, sevinərdim ki, yenə möhkəm susuzlayacam, susamış vəziyyətdə evə gedəcəm və su içməyin dadını doyunca hiss edəcəyəm. Yəqin ki, oruc tutub bir gün axşama susuz qalanlar məni daha yaxşı başa düşərlər. Əslində su dünyanın ən dadsız şeyidir, ancaq onu möhkəm susayıb sonra içəndə dünyanın ən dadlı şeyi olur. Yəni insan əzab çəkməsə həzz almaq onun üçün adi bir şey olar, qəmgin olmasa xoşbəxtliyin ləzzətini anlaya bilməz, acmasa yeməkdən zövq ala bilməz, eləcə də susuzlamasa suyun dadını bilməz. Yaşayın. Yaşama qəm çəkmək də daxildir, xoşbəxt olmaq da, ancaq siz mənə baxmayın, suyu çox için.

**Vüqar VƏKİLOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## TƏBİƏTİN VƏ TARİXİN HARMONİYASI
### 2. TƏBİƏTLƏ İÇ-İÇƏ YAŞAYAN XALQ



*(əvvəli ötən sayda)*

Niderland insanı üçün təbiət yaşadığı məkandan, bir qədər də dəqiqləşdirsək, yataq otağından, qonaq otağından, evinin kandarından başlayır. Çoxmərtəbəli binada yaşayırsa, onun evinin hər künc-bucağında, eyvanında mütləq bir yaşıllığa, gülə-çiçəyə, yaşıl budaqlara rast gələcəksən. Eyvanlar isə bir başqa aləmdir. Eyvanlar məhəccərlər boyu asılmış, döşəmələrə düzülmüş böyüklü-kiçikli dibçəklərinin çoxluğu, bu dibçəklərdən boy verən al-əlvan çiçəkləri, çeşid-çeşid yaşıl bitkiləri ilə qarşına çıxacaq.

Üzü kiçik bağçaya baxan alçaq evlərin pəncərələrindən üzünə gülən gül-çiçək dibçəkləri, bağçada əkilmiş gül kolları, dekorativ ağaclar sənin ayaq saxlamana, bu gözəlliklər qarşısında donub qalmana nədən ola bilər. Sənin dayanıb bu gözəlliyə tamaşa etməni isə Niderland insanı anlayışla qarşılayacaq və hətta sənə bu diqqətinə görə təşəkkür də edəcək. Yadımdan çıxmamış bunu da deyim: Niderlandda evlərin pərdələri həmişə açıq olur. Yay-qış. Adamların kimsədən gizləyəcək bir şeyləri yox. Bu kiçik evlərin bağçaları səliqəsi ilə, gül-çiçək arasında zövqə görə yerləşdirilmiş, müxtəlif mövzulu kiçik heykəlcikləri, rəngli daşları, ağaclardan və ya hündür bir yerdən asılmış, günəş enerjisini toplayaraq çalışan rəngarəng lampaları, bir-iki nəfərin oturub, dərdləşə biləcəyi kürsü və masaları ilə sənin heyran olmana kifayət etməlidir.

Niderlandın güllər ölkəsi olmasından hamının xəbəri var. Dünyanın gül istehsalında öndə gedir, gül ixracından xeyli gəlir götürür, bu sektor xeyli vətəndaşı işlə təmin edir. Bu faktlar az qala hamımıza tanışdır. Amma hollandların gül-çiçək aşiqi, yaşıllıq vurğunu, təbiət tutqlusu olmaları barədə çox az adam xəbərdardır.

İnsanların təbiətə bağlılığı evinin kandarından başlayır. Bunu artıq bilirik. Ayağını bayıra basan insan evindən başlayan təbiətin davamını görür. Təbiət onu hər addımda təqib edir. Mağazada alış-veriş edərkən, iş yerində çalışarkən Niderland insanı onu təbiətə bağlayan bir bitki ilə, bir heyvanla üz-üzə gələ bilir.

Evini köpəklə, pişiklə bölüşən Niderland insanının evindən kənarda rastlaşdığı heyvanlara rəğbətlə, sevgilə yanaşmayacağını düşünmək belə onlara qarşı haqsızlıq kimi anlaşılmalıdır.

Su mənbələrinə yaxın yerlərdə salınmış söyüdlüklər adamı heyran qoyur. Ucu yerə dəyən salxım söyüdlər insanları ayaq saxlamağa, çətiri altında dincəlməyə, nəfəs dərməyə səsləyir. Xırdaca bir mehin tərpətməsi ilə yarpaqları pıçıldaşan uca çinarlar, əzəmətli palıdlar, gözümüzün alışmadığı, hər budağı sirli bir varlığın buynuzlarını xatırladan dekorativ iynəyarpaqlılar, çılçırağı andıran çiçəkləri ilə çeşid-çeşid maqnoliyalar qeyri-adi gözəllikləri ilə qarşına çıxa bilər.

Şəhərlərdə sıx meşəliyə, qalın ağaclıqlara, kolluqlara da rastlaşa bilərsən. Bu yerləri insan ayağı dəyməyən vəhşi təbiətin bir parçası kimi də zənn edərsən. Qurumuş, çürümüş budaqlar necə var saxlanılır, məkanın təbiiliyinə toxunulmur. Bu ağaclıqların özünəməxsus faunasının olması da danılmazdır. Belə sahələrə ayaq basıb, təmiz havanı ciyərlərinə çəkən, quşların ötüşünə dinşək kəsilən insan urbanizasiyanın yaratdığı səs-küydən, stresdən arınır, özünü bir anlıq canlı təbiətin qoynunda, nağıllar aləmində hiss edir. Sözarası, Niderlandda az qala əhalinin hamısı şəhərlərdə yaşayır, bunu urbanizasiyanın 89 faizlik səviyyəsi də sübut edir. Bu yaşıllıqların arasında dolaşan insanları gördükcə insanın qocalmağa məhkumluğunu, öləriliyin onun üçün qaçılmazlığını bilsəm də, belə yerdə insan qocalmaz, insan ölməz kimi fikirləri də beynimdən keçirirəm. Niderland əhalisinin böyük hissəsinin 65 yaşdan yuxarı insanlardan ibarət olması danılmaz faktdır. Onlar ölkə əhalisinin 14,6 faizini təşkil edirlər. Orta insan ömrünün 78,81 il olması da mənim bu cür düşünməmə səbəb olur. Həyat səviyyəsinin yüksək olması ilə bərabər, təbiətin bu cür qorunması da insanlar arasında uzunömürlülərin xüsusi çəkisinin artmasına gətirib çıxarır.

Nohur və gölləri, çay və kanalları özünə məskən seçən, elə burada – insanların, maşınların qaynarlığında – yuva quran, nəsil artıran onlarca quş növünə rast gələ bilərsən. Həyasızlığının sərhədi bilinməyən, ilk dəfə burada gördüyüm şəvə qarası qarğalar, qışqırtıları ilə adamın beynini deşən qağayılar, bir yerdə qərar tuta bilməyib, dik-dik dingildəyən sağsağanlar hər yerdə gözə dəyir, saymazyana ədaları ilə, sanki, şəhərin insanlardan çox, onlara məxsus olduğunu nümayiş etdirirlər. Sülh rəmzi göyərçinlər hər yerdə qarşına çıxa bilər. Səninlə təmasa keçməyə təşəbbüs də göstərər. Yetər ki, sən ona xoş üz göstər.

Ara-sıra görünən, təbiətdə azad dolaşan tutuquşular, yəqin ki, nə zamansa holland dənizçilərinin uzaq tropik ölkələrdən gətirdikləri quşların törəmələridir. Nə yollasa azadlığa çıxmış bu quşların artıq yerli şəraitə uyğunlaşdıqlarını, talelərinin soyuq şimal dönəmini yaşadıqlarını da güman etmək olar. Bu gün Bakıda azad həyat sürən tutuquşuların da bu yolla yayıldıqlarını ehtimal kimi söyləmək olar. Tutuquşular kimi, kolluqların arasında bir an gözə dəyib, bir anda da gözdən itən birəbitdənlər hələ insanlara yaxınlaşmaq, təmas qurmaq bacarığına yiyələnməyiblər. Yazın gəlişi ilə qaranquşların görünməsi arasında çox da fərq olmur. Sərçələrin azlığı Niderlandda da hiss olunur. Biz tərəflərdə də son bir neçə ildə onların sayının azaldığı müşahidə edilirdi. Bu qaragün quşların hansı fəlakətə düçar olduqları barədə doğru-dürüst, ağlabatan bir xəbərə rast gəlmədiyimi, oxuduğum xəbərlərdən ağlımın bir şey kəsmədiyini də söyləyim. Görünür yenə bizim əməlimizdir, antropogen mənşəli yəni.

Su quşları sayca daha çoxdur. Onların yaşaması üçün su mənbələrinin çoxluğunu unutmamalıyıq. Çöl ördəkləri, ququşular, vəhşi qazlar, uşaqlıqda qurbağadənləyən adlandırdığımız vağlar, qaşqaldaqlar, durnalar, su fərələri və adını-növünü bilmədiyim, tanımadığım, ilk dəfə Niderlandda gördüyüm çeşid-çeşid su quşları yaşayış məskənlərinin içərisində, ətrafında, insanlarla qonşuluqda, onlarla əlaqədə və insanların yardımı ilə yaşamaqdadırlar. Qorxusuz-hürküsüz nəsillərini artırmaqdadırlar. Hər addımbaşı qarşına çıxan kanallarda, nohurlarda onlarla quşun üzdüyünü, yem axtardığını, yumurtadan yenicə çıxmış, sarıdimdik balalarına həyat dərsi keçdiyini, insanları görüncə qorxusuz-hürküsüz onlara yaxınlaşdığını, qonaq edildikləri yemək parçasını çəkinmədən götürdüklərini gözlərinlə gördükdə, bu vaxta qədər məmləkətində müşahidə etmədiyin belə bir mənzərədən şok olursan.

Aprel-iyun aylarında nohurlarda, kanallarda, çaylarda quşların yumurtadan çıxmış yeni balaları ilə insanların görüşünə gəlmələri adi bir haldır. Çöl ördəyi ailəsinin insanların alçatarında dörd balasını böyütmək üçün necə qayğı çəkdiklərini və gördüyüm bu səhnədən necə təsirləndiyimi, gözlərimin dolduğunu indi də xatırlayıram. Görəsən ördək balaları böyüyüb böyüklərin cərgəsinə qarışa bildilərmi sualını təkrar-təkrar qafamdan keçirirəm. İnsanlardan onlara bir xətər gəlməyəcəyi düşüncəsiylə rahatlıq tapıram. Amma bir müşahidəm o ördək balaları sarıdan əndişəmi artırırdı. Nədən ki, bir çox quşların balası qağayıların, qarğaların asanlıqla qurbanına çevrilə bilir. Dəstə ilə hücum edən qağayılar və ya qarğalar bu körpələrin valideynlərini çaşdırıb yorur, onların fikrini yayındıraraq balalarını aparırlar. Kənddə yaşayanlarımız qarğaların, sağsağanların toyuq cücələrini necə caynaqlarına keçirdiklərini bilməmiş deyillər. Mən bunu Rotterdamda da müşahidə edə bildim. Qırmızıbaş bir ördəyin üç balasını qağayılardan necə müdafiə etdiyini, amma bu mübarizədə mütləq məğlub olacağını seyr etməkdən əzablı bir mənzərə təsəvvür edə bilməzsiniz. Bu xırdaca yavrulara hücum edən qağayı dəstəsini zorla qovsam da, qağayıların təbii haqlarına müdaxilə etdiyimin də fərqindəyəm.

Bu quşların toplaşdığı, barındığı yerləri açıq havadakı minizooparklara da bənzətmək olar. Hərçənd ki, zooparklar xüsusi müəssisələrdir. Heyvanlara qulluq edən işçiləri var. Bizim minizoopark adlandırdığımız yerlərdə belə qaydalar yoxdur. Bu yerlər insanların şüurlu və könüllü hərəkətləri ilə mövcuddur. Belə yerlərdə insanlar öz istəkləri ilə quşların qulluğunda dururlar. İnsanlara alışmış, onlardan heç bir təhlükə gəlməyəcəyini anlayan quşlar özlərinin yabanı olduqlarını unudaraq ev quşları kimi davranırlar. İnsanları görüncə onları sahibləri zənn edib yanlarına yaxınlaşırlar. Bu mənzərəni kənardan müşahidə edəndə elə bilirsən ki, ev sahibi öz toyuq-cücəsini yemləyir, onun ətrafına yığışmış quşlar isə ev quşlarıdır. Bəzən ailəliklə quş yemləməyə gələn insanlar həm bu quşları bəsləyir, həm də uşaqlarına təbiəti sevməyi, onun ayrı-ayrı ünsürlərini tanıdıb, onları qorumağı aşılayırlar. Kiçik Lusiya ilə belə bir gəzintinin, quşları birlikdə yemləməmizin həm onu, həm də biz böyükləri necə pozitiv enerji ilə yüklədiyini hələ də unutmamışam. Onların qulluq etdikləri quşları isə əhliləşdirilmiş, ən azından yarıməhliləşmiş, ələ öyrədilmiş ev quşları da saya bilərik. Nədən ki, gözümüzlə gördüklərimiz bizi belə düşünməyə vadar edir.

Qış aylarında şəhərlərdə daha çox görünən qağayıları yemləyən insanlara hər yerdə rast gələrsən. Binaların yuxarı mərtəbələrindən onlara yem atan uşaqları-böyükləri görmək şəhərin adi mənzərələrindəndir.

Acı da olsa, arada bizim təbiətə münasibətimizlə avropalıların təbiətə münasibətini müqayisə edirəm. Yadıma təxminən 45 il bundan əvvəl gözümlə gördüyüm, passiv də olsa iştirakçısı olduğum bir hadisə düşür. Kəndin ayağından axan kanala hardansa gəlmiş, yəqin ki, yolunu azmış ördəyi ələ keçirmək istəyilə min bir yöntəmə baş vuran beş-on uşağın hərəkətləri gözümün qabağında canlanır. Bəlkə də yaralı olan ördəyi ölü və ya diri olaraq ələ keçirmək istəyimizin vəhşi ifadəsini deməyə belə çətinlik çəkirəm. Əlimizə keçən hər şeylə ördəyi vurmaq istəyimiz gözlərimin önündən getmir. İndi bu sətirləri yaza-yaza şükür edirəm ki, nə yaxşı sayımızın çox olmasına rəğmən, biz istəyimizə nail ola bilmədik. Görünür insanların belə sərt hərəkətləri ilə üzləşə biləcəyini ona xəbər verən müəyyən instinktə malik olması o kiçik ördəyin suya bataraq başqa bir yerdən çıxmasına, bu yöntəmlə bizdən uzaqlaşmasına və bu minvalla da həyatını qorumasına yardım etmişdir. Bu utancverici epizodla müxtəlif coğrafiyalarda yaşayan insanların təbiətə münasibət fərqini qabartmaq istəyim də anlaşılan olmalıdır. Quşvuranını qurbağaların, sərçələrin üzərində sınaqdan keçirən sovet kəndinin uşaqlarının başqa bir əyləncəsinin olmadığını da vurğulamadan keçməyim. O vaxtdan indiyədək çox şeyin dəyişmədiyini də üzülərək söyləyim.

Heç bizim böyüklərin də təbiətə münasibətində müsbət dəyişiklik olduğunu düşünmürəm. Düzdür, dövlətin təbiəti qorumaq məqsədilə atdığı addımları, inzibati cəzaları və digər tədbirləri bu sahədə müsbətə doğru dəyişmənin ilkləri saya bilərik. Üstəgəl, dünya ölkələri ilə gediş-gəlişin intensivliyi sayəsində insanlarımızın yaxşı olanları mənimsəyərək öz gündəlik həyatlarında tətbiq etmək istəmələrini də uğurlarımızdan saymaq olar. Dünya gör-götür dünyasıdır. İnkişaf etməmizin bir yolu-yöntəmi də bu olmalıdır. Ancaq insanların şüurlarında bu müsbət meyllərin çoxalmasının, pozitiv düşüncənin formalaşmasının ləng getdiyini də etiraf etməliyik, bunun sürətlənməsi üçün yollar aramalıyıq.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

# İOSİF QRİŞAŞVİLİNİN
# "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
## YETİM GÜRCÜ



*(əvvəli ötən sayda)*

Yetim Gürcü inamla və səylə Rustavelinin yüksək adını əziz tutur və şəhər xalq şeirinin bərəkətini Sayat-Nova qəlibinə yerləşdirir. Keçmiş poeziyanın virtuozlu hiyləgərliyini o, sözlərdən məharətlə istifadə olunmasında ifadə etmişdir. O, özünün poetik dözümlülüyünə əmindir və alnıaçıq bəyan edir:

***"Mənim şeirim bitib-tükənməz,***
***Kimin nəsə xahiş etməsinə həmişə hazıram,***
***Diri ikən hələ dəyərim yox,***
***Ölsəm, heç kim mənə yas tutmasın;***

***Yetim Gürcü inciyər,***
***Əgər getsə, bir daha gəlməz,***
***Rustavelinin oğulluğu***
***Və ikinci Sayat-Nova".***

Biz müəllifin təvazökarlığını bilməsək, onda bu sonuncu sözləri müasir şairlərin ümumi qüsuru kimi yazardıq: Özü barədə böyük təsəvvür və sonsuz ideallar! Lakin Yetim Gürcünün Rustaveliyə belə asan meyli dahi şairin gürcü xalq şairlərinə də hədsiz təsirindən irəli gəlir. Bu belə olmasa, onda elə həmin Yetim Gürcünün sözlərini deməyimiz lazım gələrdi:

***"Hardadır Şotanın qəbri,***
***Gedim şikayət üçün!"***

Lakin şairin bilavasitə və asanlıqla danışdığı yer cazibədardır:

***"Mən yeni dərd aldım,***
***Suda dururam, od düşüb mənə".***

Yetim fars poeziyasının ciyərparəsidir. Monteskyö söyləyir: "Şərqdə daha çox ozan vardır, qızmar günəş onların ehtirasını daha da kəskinləşdirir". Fars həssaslığı Yetimin zərif fantaziyasında bolluca ilmələnib. Əfsanə var: İranda bir müğənni var imiş, elə yanıqlı oxuyurmuş ki, halbuki, boğazına kimi suda imiş, hər halda yanıb.

***"Bir de görüm, kimin sözü ilə məndən getdin,***
***Mənim ol, niyə başqasının oldun?"***

Həddindən artıq diqqətə layiqdir ki, fars poeziyasının təsirinə baxmayaraq Yetim Gürcü müxəmməs formasına müraciət edir. Onun şeirləri daha çox on altı hecalılıq üsulunda qurulub, halbuki, bu, ona şeirin sonunda, köhnə aşıqlar kimi, öz adını da ritmə salmaqda mane olmur. Məsələn:

***1.***
***"Mən də qələmimlə keşik çəkirəm,***
***Möhkəm dururam, necə bir qala bürcü,***
***Yaşasın, Gürcüstan, onun dərdini,***
***Qadasını alsın Yetim Gürcü".***
***2.***
***"Gözlərin səmadan da göydür,***
***Sənin saçların-qızıl fırça,***
***Xeyir-duanı versin Yetim Gürcü".***
***3.***
***"Əcdadların beşiyini yandıranı,***
***Övlad kimi qəbul edə bilmərəm,***
***Öz atasının məzarını belləyən***
***Rəncbərə ayıb olsun.***
***Viranə qalsın o gözəl bağ,***
***Bülbül ki, qarğalaşa,***
***Onda ölsün Yetim Gürcü,***
***Nə vaxt şeirin tükəndisə".***

Yetim Gürcünün kağıza köçürülmüş bəzi şeiri öz həyatını və orjinallığını itirir. Bu cür şeirlərin ətri onun ifadə etmə şivəsi və mahnıların havasıdır. Sətirlərin təsir etməsi arasında bütövlük yoxdur. Orada-burada sezura pozulur, ritm çox vaxt sadədir və təkrardır. Əvəzində sətri oynatmağı yaxşı bilir və bu oynadılan qamçının dəydiyi vay adamın halına:

***"Ağacın ürəyi var, daşın ciyəri,***
***Və kərpicin isə beyni var".***

Yetimin poetik məcazı qətiyyətli və parlaqdır. Yetim Gürcü, əgər belə demək mümkündürsə, qaraçoxeli imajinistdir *(İmajinizm-İngiltərədə və Rusiyada ədəbiyyat sahəsində formalist-dekadentik cərəyanlarından biri-M.M.).*

***"Yetim Gürcü, nəzər yetir, yaxşı olar ağıla gələsən,***
***Tükü qurutmaq üçün küləkli dağa çıxardıbsan".***

Və ya

***"Suda durub su atıram,***
***Əllərimdə xəlvir tutmuşam".***

Və ya yenə

***"Elə özümün günahımdır,***
***Nədən ötrü ürəyimdə kirayəşinsən?***
***İsa peyğəmbərin anlayışı ilə niyə gəlmişəm,***
***Məhəmmədin qapısına xidmət etmək üçün?***

***Daş duz ilə enli örtük tikirəm,***
***Öz evimi örtmək üçün.***
***Neyləyirdim, quru daş üstə***
***Durub baluçqı oldum?"***

Şəhərin melodiyalarından hissə-hissə toplanmış formanın sadəliyinin və kəsərliliyinin olduğu, zərif instinktin ustalıqla büruzə verdiyi bu şeirlər özözlüyündə yaxşıdır, çevikdir, oynaqdır. Lakin şeirin bünyəsi başdan-ayağa bir duyğu ilə hopulmamışdır, şeirin bütövlüyündə əskiklik var. Manera, ziddiyyət yoxdur ki, bunlarsız da şeir ədəbi xəzinə olaraq poeziya xəzinəsində ağalıq edə bilməz.

Yetim Gürcünün bir şeiri vardır ki, bunun da məğzi məşhur xalq mahnısını bizə xatırladır ("Gümüş piyaləyə çevirdi məni"). Orada da və burada da bu hər iki əsər məhəbbət fonunda sərgilənib və poetik müqayisələrlə cilalanıb. Lakin xalq şeiri nə qədər ki, bilavasitə bizə zəngin və heyrətedici simalar verir, bir o qədər də Yetim Gürcünün bu şeiri zövqsüz təqlidçilik çalarını büruzə verir.

**Yetim Gürcü:**

***"Kaş ki, təsbehə çevriləydim,***
***Büllur barmaqlarınla dənələyəydin,***
***Və yaxud süpürgə olaydım,***
***Sənin ayağının tozunu süpürəydim!***
***Kaş ki, elə olsun, mənim özüm***
***Sənin barmağının üzüyü olum,***
***Sənin barmağına elə yapışım ki,***
***Bir kimsə çıxara bilməsin!***
***Və ya yataq taxtı olum,***
***Üstümdə yat və xorulda,***
***Və ya milçək olaydım,***
***Sənin üzündə uçaydım!***
***Xoşbəxt olardım***
***Mən ki, qaşığa çevrilsəydim***
***Və sənin gözəl barmaqlarına***
***Nahar vaxtı toxunsaydım!***
***Və ya olum nəsə əşya,***
***Sən olaydın məni aparası,***
***Sənin cibində olaydım kirayəşin,***
***Sənin evini açmaq üçün!"***

**Xalq:**

***"Gümüş piyaləyə çevirdin ki,***
***Şərabla dolaydım,***
***Qırmızıya örtüldüm mən,***
***İçəydin, halalın olaydı!***
***Ya məni üsküyə çevriləydim,***
***Əlinə toxunmaq üçün,***
***Sənin orağına zəmi olaydım,***
***Ki, ayağımdan doğrayaydın!***
***Sənin ləçəyinin tükü olaydım,***
***İynənə saplanaydım;***
***Ya sənin kirpiyinin külü olaydım,***
***Kirpiyinə töküləydim!***
***Ya da olaydım qızılgül, çiçək,***
***Ağız-burnuna töküləydim,***
***Ya olaydım ipək köynək,***
***Ürəyinin başında əriyəydim!***
***Ya sənin istədiyin olaydım,***
***Acığa qəlbinə soxulaydım,***
***Ya da qardaşın olaydım müştərək –***
***Sağ ikən səndən ayrılmayaydım!"***

Yetim Gürcünün bu şeiri bu orjinal və dahi xalq əsəri ilə müqayisədə ucuz imitasiya xarakterini daşıyır. Xalq şairinin xalq şeirinin güllərini öz bağında calaq etməsi nəyə lazımdır? Məhəbbət körüyünü ifadə etmək üçün Yetim Gürcünün özünün ondan əskik olmayan zəngin lüğətinin olduğu xalq şeirinin "yetimləşdirilməsi" nəyə lazım idi?

Yetimin mahnıları şəhərin danışıq dilinə yaxınlaşdı. Çox hallarda Yetim mahnı üçün melodiyaları özü yaradır: Müəllif hansısa xalq havasını götürür və şeirin məğzinə uyğunlaşdırır. Lakin bu hava şairlər tərəfindən çox hallarda elə hala düşmüşdür və Tiflisin məqamı elə gözəl nəzərə çarpır ki, onun ilk mənbəyi axtarılmalı olur və mahnı şəhərin fərdi simasını daşıyır.

Çox hallarda Yetimin şeirləri iki, dörd və ya altı sətirdən ibarətdir ki, bunları da müvafiq olaraq bəzən samikitnolarda *(Şərab dükanlarında-M.M.)* "boğazını isladan zaman" söyləyir. Yetim şeirləri bitirmir və ya daha yaxşı desək, bitirə bilmir. Şairin qələmin sayəsində öz şəyirdləri arasında yaydığı bir az böyüdülmüş şeir isə "itotu, bağayarpağıdır" və onda artıq uzunçuluq görünür. Belə şeirlərdə duyğunun paralel xətləri yoxdur. Sonu da estetik küçəbəndində özünü büruzə verir:

***"Yazmaqdan, mahnı oxumaqdan yoruldum,***
***Təkcə sənin üçün vaxtım var,***
***Sənin üçün qələmi qırdım,***
***Və mürəkkəbi boşaltmışam".***

Mürəkkəb tökülmüş şeir zəifdir və solğundur. Şifahi olaraq deyilmiş şeir isə davamlıdır, zərifdir.

Mən hər halda Yetim Gürcünün istedadına xüsusi diqqətlə yanaşıram. Onun bohemik xarakteri və söhbət zənginliyi məni valeh edir. O, mizrabının da hələ yenə qırılmadığı şəhər ədəbiyyatının sonuncu nümayəndəsidir.

***"Hamı nəsə bir şey sevir,***
***Mənsə mənimkilərin uzun ömür sürməklərini,***
***Başqasınınkı mənimkindən gözəldir,***
***Bunu heç kim inandırmasın mənə,***
***Mən xalq ozanıyam***
***Tiflis şəhərinin-Gürcüstanın."***

Neyləyək ki, bu qısa şeirlər Ömər Xəyyamın rubailərinə bənzəmir! Neyləyək ki, onun poeziyasının nüansları torunda çabalayırıq. Əvəzində bilirik ki, həqiqi şair səmimidir və öz hisslərinin sadəqəlbli aləmini uşaq qüsursuzluğu ilə cızır.

***"Dərdli-dərdli başladım oxumağa,***
***Diriyəm, mən isə inanmıram,***
***Yetim Gürcü, bu da tale yazısıdır!"***
***Yetim Gürcünün aşiqanə şeirləri də vardır:***
***Çoxu deyər, məhəbbət barədə***
***Şeir yazmaq bilmirsən,***
***Siz ki, deyirsiniz, haqlısınız.***
***Məndən ki, soruşsanız, inanmıram".***
***Lakin onun məhəbbəti başqa cürdür:***
***"Məhəbbətin nəğməkarıyam,***
***Gözəlləşdirirəm ana dilini,***
***Mahnıların yaradanı var,***
***Məclislərdə səpələyirəm şənliyi;***
***Millətlərarası vasitəçiyəm,***
***Hər yerdə qızılgül sərgiləməyə cəhd edirəm,***
***Mən təkcə onun düşməniyəm,***
***Məhəbbətə iynə batırmağa cəhd edənin."***

Yetim Gürcü şeirlərində, şəksiz, güclü duyğuya, şəhər temperametinə, poetik ekstaza malikdir. Yetim Gürcünün xalq şeirləri şərabla dolu piyalədir ki, bu da əldən-ələ gəzir və hər halda calanmır.

Yetim Gürcü tiflislidir və bütün tiflislilər kimi qorxaq dostu sevmir, "bilənlərin" *(Müəllif "bilənlər" sözünü işlədib, ariflər mənasında-M.M.)* qadasını alır:

***"Qələmlə gəzib dolaşacağam bu aləmi***
***Anlayan camaatı siyahıya almaq üçün;***
***Maqnit torunu atıram,***
***İgidləri tutmaq üçün,***
***"Bilənlər" yan ötməyəcək,***
***Onları dəftərimə yazmaq üçün,***
***Sevirəm öz Gürcüstanımı,***
***Haray salıram, hamını inandırmaq üçün".***

Yetim Gürcü üçün siyasi meydan da yad deyildir. O, 1905-ci ildə öz auditoriyasını belə dəvət edirdi:

***"Aç qulaqlarını,***
***Ağıla gəlmək vaxtıdır,***
***Çürük körpü dağıldı,***
***Yeni yol salırıq!***

***Mən səni haraylayıram, qardaşlığım,***
***Sən də başqasına ötür,***
***Nə qədər çox olarıqsa,***
***Tezliklə çəkərik yolu.***

***Dinlə, qulaq ver***
***Yetim Gürcünün dediyinə,***
***Əgər sən də istəyirsən layiq olasan***
***Yeni həyatın yoluna".***

Bax, bu "yeni həyat"ın şairi fəhlə barəsində nə deyir:

***"Sevirəm bütün gözəllərin***
***Fəhlə tərinin tökülməsini,***
***Əlinin dərisi cadarlaşmış ağac kimi,***
***Və üzərində köbələk əmələ gəlmiş.***
***Yetim Gürcünün sevgisinə***
***Fəhlə deyirlər, haqlı sayıram,***
***Diriyəm, ona nəğmə oxuyuram,***
***Ölsəm, fəhlənin qadasın alım!"***

Bu şeiri Yetim Gürcü Bakı şəhərində, 1905-ci ildə fəhlələrin iclasında oxumuşdur. O, həmin vaxtlar neft sənayesində işləyirdi *(Bax: "Muşa" ("Fəhlə"), 1924-cü il, № 634).*

Elə bu vaxtlarda, 1905-ci il oktyabrın 17-də fəhlələrin mitinqlərinin birində Yetim Gürcü öz bayrağı ilə çıxmışdır ki, onun da üzərində yazılmışdır:

**"Sevinirəm, amma inanmıram!"**

Reaksiyanın qələbəsindən sonra Yetim Gürcünü başqa fəhlələrlə birlikdə tutdular və inzibati qayda ilə Volin quberniyasının Dubno həbsxanasına saldılar. Burada o, dörd il qaldı. Sonra Kremensk şəhərinə məhbusların islah-əmək koloniyasına apardılar. 1912-ci ildə demək olar ki, azad etdilər, lakin vətəndə yaşamaq hüququnu hər halda ona verməldilər... Onun işgəncəsinə inqilab məlhəm qoydu. O, azadlıq odu ilə qəlbi yanan, daimi azad və heyran qalmış halda vətənə qayıdır və Tiflisi görməklə sevinənin içindən bu duyğulu şeir gəldi:

***Salam, mənim Tiflis şəhərim,***
***Sənin itkin düşmüş oğlun qayıtdı.***
***Ey, Gürcüstanın torpağı, daşı, yeri,***
***On iki ilin əzabkeşi qayıtdı.***

***Müqəddəs dağ, Keşiş Davidin,***
***Sən keşikçisi Tiflis şəhərinin,***
***Müqəddəs torpağı, ölməz yazıçıların,***
***Onların qəbirlərini ziyarətə gəldim.***

***Böyük Qala, Qədim Narınqala,***
***Gürcüstanın qədim sakin qüvvəsi,***
***Polşa həbsxanası sənin oğlunu gizlətdi,***
***Qanım qurumuş, şikayətə gəlmişəm.***

***Böyük zəng, bizim Sioni,***
***Sənin şanlı səsinin arzusundayam,***
***Bizim Kür, Rioninin qardaşı,S***
***Əzablarımı yumağa gəlmişəm.***

***Mənim qardaşlarım Hayos-Kartlos,***
***Mən əzabkeşi çoxdan tanıyırsınız!***
***İkiüzlü dostun satdığını –***
***Salam! Mən, Yetim Gürcü gəldim!"***

*(davamı gələn sayda)*

***Gürcü dilindən tərcümə edən:***
***Mirzə MƏMMƏDOĞLU***

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “იენი იოლი” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 15 SENTYABR 2021-Cİ İL №017 (140)

# DƏRNƏKLƏR HANSI TÖVSİYƏLƏRLƏ FƏALİYYƏT GÖSTƏRƏ BİLƏR?



Bildiyimiz kimi, ölkədə təhsil distant qaydada başlayır. Bəs məktəblərdə fəaliyyət göstərən idman və incəsənət dərnəkləri necə?

Məsələ ilə bağlı Əmək Müfəttişliyindən “etaloni.ge”yə bildirilib ki, pandemiya ilə bağlı tənzimləmələr eyni qaydada idman və incəsənət dərnəklərinə də aiddir. Fərqi yoxdur, dərnək istər məktəb binasında, istərsə də başqa yerdə fəaliyyət göstərsin, sanksiyalar başqa sektorlarda olduğu kimi burada da eynidir.

*“İdman və incəsənət dərnəyi məktəb binasındadır və ya başqa yerdə, bu barədə sərəncamda məhdudiyyət yazılmayıb. Verilmiş tövsiyələr bütün dərnəklər üçündür, dərnəyin harada fəaliyyət göstərməsinin heç bir fərqi yoxdur. Əsas odur ki, virusun qarşısının alınması üçün hazırlanmış qaydalara riayət edilsin. Sanksiyalar bu halda da eynidir – fiziki şəxslər üçün 2000 lari, hüquqi şəxslər üçün 10 000 lari, ciddi qayda pozuntusu qeydə alınarsa fəaliyyətin tam dayandırılması nəzərdə tutulur”*, - deyə qurumdan bildiriblər.

***Məşq və digər yaradıcılıq fəaliyyətləri üçün mövcud olan tövsiyələr isə bunlardır:***

• Məşq üçün iş qrafikini elə təyin edin ki, müxtəlif işçi qruplarının üzvləri bir-biri ilə təmasda olmasınlar;

• Məşq qrafikini növbələrə əsasən təyin edin;

•İmkan daxilində, bir növbədə 10 (on) nəfərdən artıq adam nəzərdə tutmayın;

• Əgər yaradcılıq kollektivinin məşqi üçün 10 nəfərdən artıq şəxs lazım olarsa, hər iştirakçının məşq məkanında 5 m2 sahəyə buraxılmasını, yaxud iştirakçılar arasında ən azı 2 metrlik təhlükəsiz məsafə saxlanmasını təmin edin.

• Elə edin ki, məşq 2 saatdan çox davam etməsin;

• Növbələr arasında ən azı 1 - 1,5 saat ara verin;

• Orkestr/komanda/müğənnilər ansamblının səhnəyə yerləşdirilməsi halında 2 metrlik məsafə/yaxud komandanın distansiyanı qorumaqla yerləşdirilməsi nəzərə alınmalıdır;

• Geyim və qrim otaqlarında aktyorlar üçün mebeli elə yerləşdirin ki, təhlükəsiz məsafə qorunsun;

• Məşq, konsert və tamaşalar zamanı istifadə olunan rekvizitlərin sayını maksimum dərəcədə azaldın;

• Bir qrim ləvazimatından bir aktyorun istifadə etməsini təmin edin;

• Birdən artıq aktyorun bir kostyumdan və digər xüsusi geyimlərdən istifadə etməsini qadağan edin. Əks halda onları dezinfeksiya edin;

• Konsert, tamaşa, yaxud məşq işləri başa çatdıqdan sonra, təhlükəsizlik məqsədi ilə istifadə olunan rekvizitin, alətin, mikrofonun, səs aparatları/pult və ya başqa texniki, yaxud yaradıcılıq işi üçün mühüm olan vasitələrin lazımi qaydada dezinfeksiyasını həyata keçirin; Məkanın təbii havalandırılması mümkün deyilsə, bayırdan gələn havanın dövriyyəsi və bayıra ötürülməsi ilə süni havalandırmanın düzgün işləməsini təmin edin.

*Mənbə: etaloni.ge*

# 1 072 NƏFƏR AZƏRBAYCANLI ABİTURİYENT ALİ MƏKTƏBLƏRƏ QƏBUL OLUB



2021-2022-ci tədris ili üzrə Gürcüstanın ali məktəblərinə 1 072 nəfər azərbaycanlı abituriyent qəbul olub.

Bu barədə “Report.az”ın yerli bürosunun sorğusuna cavab olaraq Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzindən məlumat verilib.

Bildirilib ki, onların 1 033-ü milli azlıqlar üçün nəzərdə tutulan “1+4” proqramı üzrə qəbul olunub. Dövlət qrantı əldə edən tələbələrin sayı isə 99 nəfər təşkil edir.

Əvvəlki dərs ili ilə müqayisədə Gürcüstanda tələbə adını qazanan azərbaycanlıların sayı 116 nəfər artıb. Universitetlərə qəbul olunan erməni abituriyentlərin sayı (296 nəfər) isə azərbaycanlılarla müqayisədə 3,6 dəfə azdır.

Azərbaycanlı tələbələrin böyük əksəriyyəti Gürcüstan Texniki Universiteti (338 nəfər), İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (301 nəfər) və İlia Dövlət Universitetində (208 nəfər) təhsil alacaqlar.

# PEYVƏND OLUNANALAR PUL MÜKAFATI QAZANACAQLAR



Gürcüstanda sentyabrın 13-dən vətəndaşların koronavirus əleyhinə vaksin olunmasının təşviqi məqsədilə lotereya oyunlarının keçirilməsinə başlanılıb.

Peyvənd olunanlara pul mükafatları qazandıracaq kampaniya hər gün təsadüfi seçim əsasında təşkil olunacaq.

Bu ilin sonuna qədər davam edəcək lotereyanın ümumi mükafat fondu 2 milyon 800 min lariyə bərabərdir.

Minimal uduşun məbləği 100 lari təşkil edir. Hər gün 100 laridən 500 lariyədək, hər həftə isə 1 000, 1 500 və 10 min lari məbləğində pul mükafatları oynanılacaq.

Yekun oyun ilin sonuna yaxın keçiriləcək və uduş fondu 100 min lari olacaq.

# GÜRCÜSTANA 100 MİN DOZA “SİNOPHARM” HƏDİYYƏ EDİLİB




Gürcüstan koronavirus əleyhinə Çin istehsalı olan 100 min doza “Sinopharm” peyvəndi əldə edib. Preparatlar Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən hədiyyə kimi təqdim olunub.

Ölkədə “Sinopharm” əhali arasında ən çox vurdurulan peyvənddir.

Qeyd edək ki, Gürcüstan 100 min dozadan ibarət “Sinopharm” vaksininin ilk partiyasını aprel ayında tədarük edib.

Ölkədə COVID-19 əleyhinə peyvəndlənməyə martın 15-dən başlanılıb, iyulun 5-dən kütləvi xarakter alıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.